*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 iyul 2017-ci il № 56 (2173) Qiyməti 25 qəpik


## Azərbaycan və Rusiya prezidentləri ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayıblar

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşüb.*

Dövlət başçıları söhbət zamanı Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğunu bir daha təsdiqlədilər. İkitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladılar. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi. Beynəlxalq və regional problematika ətrafında fikir mübadiləsi aparıldı. Hər iki dövlət başçısı Rusiya-Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirdilər.

**AZƏRTAC**

## Cənab Prezident, diqqət və qayğıya görə çox sağ olun!

Sevincin bəyaz rəngi göz doydurur, könül açır. Sevinənin köksü ürəyinə darlıq edir, bu sevinci ömrünün göyqurşağı bilir. Ona elə gəlir ki, günlü yağışdan sonra göy üzünün göy qurşağına dönən göyqurşağı təkcə onundu - göyqurşağının altından keçib, başlanğıcı qədərsiz könül xoşluğu olan bu anlar aylara, illərə dönüb ömürləşəcək. Sevinən sevinci bəxş edənə təşəkkür üçün uyarlı kəlmələr tapmaqda çətinlik çəkir...

Yellər illərlə mənim də ömür ağacımın budaqlarını hərdən oxşayıb, hərdən titrədib. Yarpaq saldığı, budaq qırdığı məqamlar da olub. Sevgimə güvəndiyimə görə, sevgimə küsəndiyimə görə əsən yellər inamıma yaxın düşə bilməyib. Bu sevgi torpaqdı - torpağı sevən hər vətəndaş özlüyündə bir Anteydi, bu sevgi Vətəndi - Vətən yaşantıların beşiyidi. Bu sevginin bələdçiliyiylə yollar yormuşam, dərələr keçmişəm, dağlar aşmışam, səngərlər dolaşmışam. Hər dəfə səngərlərdə əli əlimi isindirən əsgərlərin baxışlarında çırpınan istəyi aydınlığıyla sezmişəm, sezdiklərim sözə dönüb, sözlər - mətləbə. Əsgərlərin hər birinin Vətən sevgisini nur əvəzi gözlərimə sürtmək istəmişəm...

2016-cı ilin aprelində yaşadıqlarımın (yaşadıqlarımızın) sevincini yaşayacağımız günün haləsi bildim - Böyük Qələbənin başlanğıcı mənim yazdıqlarımın (yazacaqlarımın) qayəsi oldu. Azərbaycan əsgəri tarix yazdı. O sevinci məmləkətimizə Sizin rəhbərliyinizlə Azərbaycan əsgəri yaşatdı, cənab Ali Baş Komandan!..

(Ardı 3-cü səhifədə)



## "Vətənlə döyünür ürəklərimiz"

"N" hərbi hissəsinin düşmənlə bilavasitə təmas xəttində yerləşən bölməsindəyik. Döyüş postu düşmən qarşısında qala kimi dayanıb. Bu qalanı qorxmaz, mərd Azərbaycan əsgərləri qoruyur.

Şəxsi heyət gündəlik fəaliyyətlə məşğul olur. Manqa komandiri kiçik çavuş Adil Vəliyevlə salamlaşıram. Qəzetimizin "Nümunəvi xidmət" rubrikasına yazı hazırlamaq istəyimi bildirirəm.

Kiçik çavuş əsgərləri barədə söhbət açır, ən nümunəvi xidmət edəni seçməkdə çətinlik çəkir. "Əsgərlərimizin hamısı nizam-intizamlıdır, vətənpərvərdir, ordumuzun adına layiq xidmət edir, - deyə manqa komandiri bildirir. Qumbaraatan əsgər Azər Ələkbərovun 1-2 aya xidmətini başa vuracağını, döyüş növbələrində daim vətənpərvərliyi, qorxmazlığı ilə hamının rəğbətini qazandığını vurğulayır. Nümunəvi xidməti ilə seçilən Azərin həm də bölmədəki əsgərlərə yaxşı yoldaş, dost olduğunu deyir. Döyüş növbəsində olduğu üçün əvvəlcə onun haqqında silahdaşlarının dediyi fikirləri dinləyirəm.

(Ardı 2-ci səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Rusiyanın, İranın və Qazaxıstanın hərbi gəmiləri Bakıya gəlib



Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku - 2017" beynəlxalq yarışlarında iştirak etmək məqsədilə İran Hərbi Dəniz Qüvvələrinin "Peykan" və "Cövşən" raket katerləri və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin "Qazaxıstan" və "Sarıarka" raket-artilleriya, eləcə də "Jayık" hidroqrafiya gəmiləri iyulun 22-də Bakıya gəliblər.

Avqustun 1-dən 11-dək keçiriləcək yarışlarda Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmiləri iştirak edəcək.

* * *

Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku - 2017" beynəlxalq yarışlarında iştirak etmək məqsədilə Rusiya Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının "Qrad Sviyajsk" kiçik raket gəmisi və "SB-45" xilasetmə yedək gəmisi iyulun 23-də Bakıya gəlib.

Azərbaycan, Rusiya, İran və Qazaxıstan hərbi gəmilərinin iştirak edəcəyi yarışlar avqustun 1-dən 11-dək keçiriləcək.

* * *




İyulun 24-də Hərbi Dəniz Qüvvələrinin qərargahında "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin qaydaları, təhlükəsizlik və təşkilati məsələlərlə bağlı ilkin təlimat və hakimlər kollegiyasının iclası keçirilib.

Tədbirdə müsabiqənin təsdiq olunmuş əsasnaməsinə yenidən baxılıb, əlavə dəyişikliklərin aparılması və təşkilati məsələlərlə bağlı tərəflərin təklifləri dinlənilib. Hakimlər heyətinin tərkibi dəqiqləşdirilib və epizodların keçiriləcəyi yerlərə baxışların keçirilmə vaxtları dəqiqləşdirilib.

Bildirilib ki, müsabiqə "Artilleriya atəşlərinin yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı", həmçinin "Dəniz hazırlığı" üzrə yarışların keçirilməsi ilə üç mərhələdən ibarət olacaqdır.

"Dəniz Kuboku-2017" müsabiqəsinin yüksək səviyyədə keçirilməsi üçün liman körpüləri, təlim məşq kompleksləri və digər təlim mərkəzləri tam hazır vəziyyətdədir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Vətənlə döyünür ürəklərimiz"

**(Əvvəli 1-ci səhifədə)**

"Azər döyüş postuna gəldiyim ilk gündən mənə əsl qardaş münasibəti göstərib, öz təcrübəsini bizimlə bölüşüb. Xidmətdə nizam-intizamlı olmağı, komandirlərimizin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirməyi tövsiyə edib. Heç yadımdan çıxmaz. İlk dəfə döyüş növbətçiliyinə onunla çıxmışdım. Mənə deyirdi ki, qarşımızda düşmən dayanır, ayıq-sayıq olmaq lazımdır. Biz onlardan qat-qat güclüyük - Azərbaycan əsgəriyik. O, həm vətənpərvər əsgər, həm də yaxşı dostdur. Azər xidmətini başa vurub ailəsinin yanına qayıdacaq. Ona uğurlar arzulayıram", - hərbi xidmətə Ağsu rayonundan çağırılmış əsgər Ceyhun Məmmədov belə deyir.

Əsgər Rahib Bayramov təcrübəli silahdaşı haqqında fikirlərini bildirir:

- Döyüş postuna gəldiyim ilk gündən Azərin nümunəvi xidməti, Vətən sevgisi, döyüş ruhu mənə müsbət təsir edib. Onun kimi nümunəvi xidmət etmək, layiqli əsgər olmaq üçün əlimdən gələni edirəm. Azər təcrübəli əsgər kimi həm mənə, həm də bütün gənc əsgərlərə daim kömək edir, təcrübəsini bölüşür. İnanıram ki, xidmətini başa vurduqdan sonra da bizləri unutmayacaq.

Şəki rayonundan olan əsgər Kamran Kərimli də əsgər yoldaşı haqqında xoş sözlər deyir:

- Azər ordumuzda nümunəvi əsgər olduğu kimi, bizlərə də yaxşı dost olub. Bir dost kimi sevinirəm ki, əsgəri borcunu şərəflə yerinə yetirib. Bütün əsgər yoldaşlarıma da bu məqamı arzu edirəm. İnanıram ki, Azər cəmiyyətimizə yararlı vətəndaş olacaq.

Manqa komandiri söhbətə qoşularaq döyüş növbətçiliyini dəyişməyin vaxtı çatdığını bildirir. Azərin özü ilə görüşmək üçün manqa komandiri ilə səngərə üz tuturam...

Azərin əlini sıxıram. Həm komandirinin, həm də əsgər yoldaşlarının onun haqqında dediyi xoş sözləri diqqətinə çatdırıram. Çöhrəsində xoş təbəssüm canlanır. "Bundan böyük sevinc ola bilməz. Əsgər yoldaşların və komandirlərin səndən razılığını bildirir, layiqli xidmət etdiyini deyirlər. Bu mənim üçün böyük qürurdu", - əsgər Ələkbərov deyir.

Onu yaxından tanıyıram. Hərbi xidmətə Tovuz rayonundan çağırılıb. Artıq xidmətinin başa çatmasına az qalır. Ordu sıralarından hansı təəssüratlarla ayrılacağını soruşduqda belə cavab verir:

- Mən ordu sıralarından ayrılmıram. Düzdür, əsgəri xidmətim başa çatır. Lakin ömrümü hərbi xidmətə bağlamaq qərarına gəlmişəm. Əsgərliyimi başa vuran kimi xidmətimi davam etdirmək istəyimi yuxarı komandanlığa bildirəcəm. Bütün peşələrdən şərəfli olan hərbçi peşəsinin sahiblərindən olacam. Şanlı ordumuzda layiqli xidmət edəcəm. Şuşaya Azərbaycan bayrağını sancanlardan biri olmaq da ən böyük arzumdur.



Azər vurğulayır ki, biz Vətənin keşikçiləriyik, üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetirmək üçün çalışırıq. Bu yolda komandirlərinin zəhmətini xüsusu qeyd edir.

- Peşəkar komandirlərimin köməyi ilə bacarıqlı əsgər kimi yetişmişəm. Onların bizə olan diqqəti və qayğısı xidmətimi uğurla davam etdirməyə zəmin yaradır. Əsgər kimi üzərimə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışıram. Hərbi xidmətə çağırılanda atama dedim ki, inşallah təyinatım döyüş postuna olar. Hər zaman səngərdə xidmət etmək arzusunda olmuşam. Gənc əsgər hazırlığı dövrü bitdikdən sonra ön xətdəki bölməyə təyin olunduğumu eşitdikdə çox sevindim. Döyüş növbəsində düşmən qarşısında dayandım. Növbəni uğurla başa vurdum. Özümə söz verdim ki, bütün xidmətim dövründə Azərbaycan Ordusuna layiqli əsgər olacam.

Hər ezamiyyətim zamanı Azər kimi sonsuz Vətən sevgisi ilə xidmət edən, Azərbaycan əsgəri adını daşımaqdan qürur duyan əsgərləri tanıdıqca, bir daha əmin oluram ki, Azərbaycan Ordusunda vətənpərvərlər, qorxmazlar, cəsurlar xidmət edirlər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***25 iyul 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 60 millimetrlik minaatanlardan da (4 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 140 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin məzunlarının görüşü keçirilib

*Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin 1982-ci və 1987-ci il məzunlarının buraxılışlarının 30 və 35 illiyi münasibətilə görüş keçirilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən keçirilən görüşdə məktəbi bitirmiş müxtəlif ölkələrin hərbi qulluqçuları və onların ailə üzvləri iştirak edib.*




Qonaqlar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarlarını, eləcə də Şəhidlər xiyabanını ziyarət edib, gül dəstələri qoyaraq ehtiramlarını bildiriblər.

Tədbir Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində davam edib. Hərbi orkestrin müşayiəti ilə təntənəli qarşılama mərasimindən sonra qonaqlar iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun büstü önünə güllər qoyublar.



Təntənəli mərasimdə Azərbaycan Respublikasının Dövlət bayrağı və Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin döyüş bayrağı səhnəyə gətirilib. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Daha sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubu görüş iştirakçılarına çatdırılıb.

Tədbirdə çıxış edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev məzunların görüşünə toplaşanları salamlayıb, ölkəmizdə ordu quruculuğu istiqamətində əldə edilən uğurlardan danışıb.

Daha sonra çıxış edənlər hərbi məktəbdə təhsil aldıqları illərlə bağlı öz xatirələrini bölüşüb, məzunları təbrik ediblər.

Sonra məktəbin fəaliyyətindən bəhs edən qısametrajlı film nümayiş etdirilib, hərbi orkestrin və solistlərin müşayiəti ilə musiqi proqramı təqdim olunub.

Plana əsasən təşkil edilən ekskursiya zamanı qonaqlar şəhərimizin ən gözəl yerlərini - Heydər Əliyev Mərkəzini, Qoşa Qala qapılarını, Şirvanşahlar sarayını, Qız Qalası və muzeyləri ziyarət edib, gəmi ilə dəniz gəzintisində olublar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasından daim boyun qaçıra bilməz”

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Macarıstanın xarici siyasət idarəsinin başçısı Peter Siyatro ilə birgə mətbuat konfransında əsasən "Cənub Qaz Dəhlizi" layihəsində Macarıstanın iştirakı ətrafında gedən danışıqların gedişindən danışıb. Nazir Ermənistanla danışıqlar prosesində mümkün irəliləyiş barədə AZƏRTAC-ın xüsusi müxbirinin sualına cavabında təəssüflə bildirib ki, ermənistanlı həmkarı Edvard Nalbandyanla Brüsseldə baş tutan görüşündə Ermənistanın substantiv danışıqlar məcrasına keçəcəyi barədə onun tərəfindən heç bir işarə görməyib.

E.Məmmədyarov deyib: "Bununla belə, status-kvo həmişə davam edə bilməz, bunu vasitəçilər də dəfələrlə bəyan ediblər. Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasından boyun qaçırmaqla, əraziləri daim işğal altında saxlaya bilməz".

# “Ermənistan Azərbaycanın mülki vətəndaşlarına qarşı törətdiyi təxribatlara bəraət qazandırmağa çalışır”

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi son günlər Ermənistan mətbuatının guya Azərbaycan Silahlı Qüvvələri tərəfindən dövlət sərhədinə yaxın ərazilərdə yerləşən erməni kəndlərinin atəşə tutulması barədə yaydığı xəbərlərə münasibət bildirib.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan hakimiyyəti tərəfindən yayılan belə xəbərlər hərbi ittifaqda olduğu müxtəlif ölkələri aldadaraq öz çirkin avantürasına cəlb etmək və həmsərhəd kəndlərdə Azərbaycanın mülki vətəndaşlarına qarşı törətdiyi təxribatlara bəraət qazandırmaq məqsədini daşıyır.

"Ermənistan silahlı qüvvələri Berd və Noyemberyan rayonları ərazisində yerləşən atəş nöqtələrindən Azərbaycanın Qazax rayonunun Kəmərli və Qaymaqlı, o cümlədən Tovuz rayonunun Koxanəbi, Ağbulaq və Ağdam kəndlərini müxtəlif çaplı silahlardan atəşə tutublar. Nəticədə yaşayış məntəqələrindəki mülki obyektlərə, əkin sahələrinə və əhalinin şəxsi təsərrüfatına ziyan vurulub. Bu təxribatın qarşısının alınması məqsədilə bölmələrimiz tərəfindən dərhal görülən cavab tədbirləri nəticəsində düşmənin həmin istiqamətdəki atəş nöqtələri susdurulub. Vəziyyətin daha da gərginləşməsinə və baş verə biləcək nəticələrə görə Ermənistanın kriminal hərbi-siyasi rejimi tam məsuliyyət daşıyır", - deyə Müdafiə Nazirliyindən bildirilib.

# Cənab Prezident, diqqət və qayğıya görə çox sağ olun!

**(Əvvəli 1-ci səhifədə)**

Mən də azərbaycanlı olmağımla həmişə fəxr etmişəm, Azərbaycan Silahlı Qüvvələrində xidmətimlə, Müdafiə Nazirliyinin orqanı olan "Azərbaycan Ordusu" qəzetinin əməkdaşı olmağımla qürurlanmışam. Qürurlanmışam ki, aprel döyüşlərində qələbə qazanan əsgərlərlə, zabitlərlə söhbətləşmişəm, yazdığım məqalələri "Azərbaycan Ordusu", "525-ci qəzet", "İki sahil" qəzetləri, "Azərbaycan" jurnalı böyük məmnuniyyətlə, Azərbaycan Ordusuna qədərsiz sayğılarla dərc edib. Əsgərlərdən yazdığım məqalələrlə neçə fərdi jurnalist müsabiqəsinin qalibi olmuşam, Ali Media mükafatına layiq görülmüşəm. Mənə o sevincləri Sizin bu səviyyədə formalaşdırdığınız ordunun əsgərləri yaşadıb...

Sizin "Aprel döyüşləri dərsliklərə salınmalıdır" fikrinizin işığında yazdığım "Lələtəpə" və "Bayraqtəpə" kitablarımı əsgərlərimiz həvəslə oxuyur. Cənab Prezident, mənə bu kitabları Sizin dönməz inamınız yazdırıb: "Azərbaycan bayrağı Xankəndidə, Şuşada, işğal olunmuş bütün ərazilərimizdə də dalğalanacaqdır!". Sizin kəlamlarınızı publisistikaya, şeirə gətirməyi bacarmışamsa, jurnalist taleyimdən, şair taleyimdən çox razıyam.

Döyüş bölgələrinə müntəzəm səfərlərinizdə söhbətlərinizi, məsləhətlərinizi eşidən əsgərlərlə kəlmələşəndə onların qururunu aydınlığıyla görürəm. Sözə çevirdikcə o qururu özüm də yaşayıram. O qürur neçə publisistik düşüncələrə, neçə reportaja, neçə ovqata mövzu olub. Olacaq da.

Sizin rəhbərliyinizlə Silahlı Qüvvələrimizdə aparılmış və aparılan geniş miqyaslı islahatlar istər vətəndaş kimi, istərsə də hərbi jurnalist kimi mənim də ruhumun ruhuna dönüb. Sizin də, Müdafiə nazirinin də tələb və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirənlərlə söhbətlərin mən də könül dünyamın səyyarəsi bilmişəm. Hər birimiz Vətən üçün bir əsgərik amalıyla yaşayanların sırasındayam, cənab Prezident! Vətənini sevənlərin hamısı bu amalla yaşayır...

Milli Mətbuat Günü jurnalistlər üçün Sizin sərəncamınızla tikilmiş binada mənə də mənzil verildi. 2016-cı ildə Silahlı Qüvvələr Günündə Sizin sərəncamınızla "Əməkdar jurnalist" fəxri adına layiq görülməyim mənə qədərsiz qürur yaşatmışdı, o qüruru indi də yaşayıram, son nəfəsiməcən də yaşayacam. Həmin sevinci bu sevinc o qədər möhtəşəmliklə tamamladı ki! O anlarda yaşadığım hissləri ifadə etməyə qüdrətim çatmır. Bu bənzərsiz hədiyyənin könül xoşluğunu heç nə ilə müqayisə etmək mümkün deyil. Bu mənzil ömrümün bundan beləsinin ruh beşiyi olacaq. Yaşımın bu çağında bu miqyasda sevinc! Taleyimdən razıyam ki, jurnalistəm! Taleyimdən razıyam ki, "Azərbaycan Ordusu" qəzetinin müxbiriyəm! Taleyimdən razıyam ki, yazdıqlarım döyüş növbətçiliyi aparan əsgərlərimizin vətənsevərliyində damla misallı da olsa gərəklidir...

Həmin gün bu hissləri mənzil hədiyyə etdiyiniz bütün jurnalistlərin yaşadığına zərrəcə şübhə etmirəm.

Açılış günü çıxışınızda qeyd etdiyiniz fikirləri yeni binadan mənzil hədiyyə etdiyiniz jurnalistlər, ümumiyyətlə, Sizin hərtərəfli himayənizlə əhatələnən Azərbaycan jurnalistikası torpaqlarımızın işğaldan azad ediləcəyi inamı bildi: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ciddi dönüş yarada bildik. Çünki əvvəlki dövrlərdə vəziyyət belə idi - hökumətlərarası, dövlətlərarası münasibətlərdən, mənim həmkarlarımla çoxsaylı görüşlərimdə hamı bilirdi, etiraf edirdi və xəritəyə baxanda hər şey bəlli idi ki, kim işğalçıdır, kim işğalın qurbanıdır".

Bu inam Azərbaycan əsgərinin döyüş, qələbə ruhudu...

Həmin gün Sizə Azərbaycan Mətbuat Şurasının "Jurnalistlərin dostu" mükafatı təqdim edildi. Buna da çox sevindim. Siz həqiqətən jurnalistlərin dostusunuz, jurnalistlər həqiqətən Sizin dostunuzdur! Azərbaycanı bunca sevən bir azərbaycanlıya bu sevgi dönməz sevgidi!..

Cənab Prezident, bizə belə anlar yaşatdığınıza görə çox sağ olun!

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*"Dəniz Kuboku-2017"*

# "Qoy, gəmilərimiz Xəzərin sahillərini xoş müjdələrlə sevindirsin"




*III Beynəlxalq Ordu Oyunları çərçivəsində Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının başlanmasına bir neçə gün qalır. Artıq Rusiya Hərbi Donanmasının, İranın və Qazaxıstanın gəmiləri yarışlarda iştirak etmək üçün Vətənimizə gəlib. Azərbaycan Hərbi Dəniz Qüvvələrinin yarışlara qatılacaq gəmiləri və şəxsi heyəti də tam hazırlıq vəziyyətindədir.*

*Beynəlxalq yarışların şəffaf və yüksək səviyyədə təşkili üçün Müdafiə Nazirliyinin rəhbərliyi hər cür şərait yaradıb. İştirakçılar üç mərhələdə altı epizoddan ibarət yarışlarda güclərini sınayacaqlar.*

*"Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının açılışına həsr olunmuş təntənəli mərasimin ssenari müəllifi və quruluşçu rejissoru, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani bu mühüm yarışla bağlı AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik.*



**- Öncə Beynəlxalq Ordu Oyunlarının tarixi, məqsədi və Azərbaycanın bu yarışlarda iştirakı barədə məlumat verməyinizi xahiş edirik.**

- Beynəlxalq Ordu Oyunları dünyanın möhtəşəm idman birinciliklərindən heç də fərqlənmir. Rusiya Müdafiə Nazirliyinin təşəbbüsü ilə reallaşan bu oyunlar 2015-ci ildən keçirilir.

Beynəlxalq Ordu Oyunları ölkələrarası hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayişi, şəxsi heyətin peşəkarlığının və döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də iştirakçı dövlətlərin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin bərqərar olması, dostluq və rəqabət gücünün daha da artırılması məqsədinə xidmət edir. Azərbaycan ilk oyunlardan bu yarışların iştirakçısıdır. Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası "Xəzər-2015" müsabiqəsində üçüncü, "Xəzər-2016"-da isə ikinci yerə layiq görülərək "Admiral-480" motorlu qayığı ilə mükafatlandırılıb. Bu il də hərbi dənizçilərimizin yüksək qələbələr qazanacağına inanırıq.

**- "Dəniz Kuboku-2017"-nin açılış mərasimi barədə nə deyə bilərsiniz?**

- Təntənəli açılış mərasimi avqustun 1-də saat 19-da Dənizkənarı Milli Parkda - Saat qülləsinin ətrafındakı meydanda başlayacaq. Hazırlıq işləri Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə aparılır. Hər gün görülən işlər barədə nazirə məruzə edilir. Nazirliyin tədbirin böyük siyasi və mənəvi əhəmiyyətini nəzərə alan əməkdaşları yarışların yüksək səviyyədə təşkili üçün səylərini əsirgəmirlər. Təşkilat komitəsinin sədri general-leytenant Nizam Osmanov hazırlıq planına uyğun olaraq, bütün tədbirlərin vaxtında icra olunmasına xüsusi diqqət yetirir.

Tamaşaçılar üçün rahat oturacaqlar, ifaçılar üçün isə xüsusi səhnələr quraşdırılır, tərtibat işləri tamamlanmaqdadır. İncəsənət ustalarının, Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının və digər kollektivlərin son məşqləri aparılır. Konsert proqramı rəngarəng və maraqlıdır. Azərbaycan, rus, qazax, İran musiqisinə, mahnı və rəqslərinə geniş yer ayırmışıq. "Dəniz Kuboku-2017" üçün xüsusi mahnılar sifariş verilib və təqdimata hazırdır.

**- Yəqin, bu dəfə də mahnıların sözləri sizə məxsusdur.**

- Bəli, həm Azərbaycan, həm də rus dillərində ifa ediləcək mahnıların sözlərini mən yazmışam. Mətni rus dilinə şair-tərcüməçi Səyavuş Məmmədzadə tərcümə edib. Birinci mahnının bəstəsi dünya şöhrətli bəstəkarımız Qara Qarayevin tələbəsi olmuş bəstəkar Azad Zahidə, ikinci mahnının bəstəsi isə istedadlı bəstəkar, aranjimançı Fərahim Qulubəyliyə aiddir. Mahnıları Əməkdar artist Cahangir Qurbanov, Nurşən Məmmədov və əsgər xoru ifa edəcək.

**- Digər ölkələrdən necə, bədii kollektivlərin iştirakı gözlənilirmi?**

- Əlbəttə, iyulun 30-da Rusiya Müdafiə Nazirliyinin Cənub Hərbi Dairəsinin mahnı və rəqs ansamblı geniş repertuarla Bakıya gələcək. Onlar həm açılış mərasimində, həm də hərbi hissələrimizin şəxsi heyəti qarşısında rəngarəng konsert proqramı ilə çıxış edəcək.

**- Sizin layihənizlə keçirilən hər bir kütləvi vətənpərvərlik tədbiri böyük marağa səbəb olub. Daha doğrusu, rejissor tapıntıları tamaşaçıları həmişə təəccübləndirir. Bu dəfə necə, açılış mərasiminin iştirakçılarını təəccübləndirə biləcəksinizmi?**

- Çalışırıq. Hər halda, bir çox yeniliklərimiz var.

**- Deyirlər, Qobustan qayalarında təsvir olunan qamış qayığı meydana gətirmək istəyirsiniz. Sizcə, bu, lazımdırmı?**





- Əlbəttə, lazımdır. Axı, Xəzər dənizinin sahilindəki Qobustan qayaları ulu əcdadlarımızın tarixindən, məişətindən, məşğuliyyətindən, mədəniyyət və incəsənətindən, döyüş ruhundan xəbər verən daş salnaməmizdir.

Bir zamanlar Xəzərin ləpələri Qobustana kimi uzanardı. Qobustan qayalarında yüzdən çox qayıq təsviri var. Bu qayıq təsvirləri təkcə balıq ovçuluğu ilə deyil, həm də dənizçiliyin, su-nəqliyyat vasitələrinin öyrənilməsi üçün çox əhəmiyyətlidir. Qobustan qayıqları dünyanın digər ölkələrindəki qayıqlardan daha qədim, daha maraqlıdır. Üzərində günəş təsvirləri olan Qobustan qayığını biz açılış mərasiminə gətirəcək, bütün iştirakçıları xəyalən on beş min il əvvələ - paleolit dövrünə aparacağıq.

**- Çox gözəl, "Dəniz Kuboku-2017" yarışlarına gələn qonaqlarımız da görəcəklər ki, Azərbaycan bəşər sivilizasiyasının ilkin məskənlərindəndir. Tariximizi, mədəniyyətimizi bu cür tədbirlərdə geniş təbliğ etmək hər birimizin vətəndaşlıq borcudur.**

- Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin, eləcə də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycanın yüksək səviyyədə ev sahibliyi etdiyi birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, Formula-1 yarışlarının və digər mötəbər tədbirlərin ölkəmizin dünyaya tanıdılmasında, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mühüm rolu hamıya bəllidir. Biz də bu mötəbər tədbirin başlanğıcında tarixi keçmişə qısa ekskurs edəcək və dünya şöhrətli səyyah, arxeoloq-etnoqraf, antropoloq Tur Heyerdalın Qobustan qayaları haqqında dediklərini bir daha tədbir iştirakçılarının nəzərinə çatdıracağıq.

Tur Heyerdal Qobustanın qamış qayıqlarını dünyanın ən qədim qayıqları kimi dəyərləndirib, Xəzər sahilindəki Qobustan abidələrini böyük bir sivilizasiyanın beşiyi adlandırıb. Qobustan qayıqlarının burun hissəsindəki Günəş təsvirləri fəza cisimlərinə inamı, işıqlı həyatı əks etdirir. Xəzər qədim Qobustan insanları üçün ümmansız, sonu görünməyən bərəkətli bir dənizdir. Günəş isə hər gün onun mavi suları üzərində bərq vuraraq insanlara bol-bol sevinc, xoşbəxtlik, şadlıq, həyat bəxş edir.

**- Bir türkmən şairi çox gözəl deyib: bu dəniz Xəzər sahillərində yaşayan bütün xalqlar üçün ümumi dəstərxandır. Dostluq, səmimiyyət, qarşılıqlı anlaşma, etimad və əməkdaşlıq dəstərxanı.**

- Biz "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının açılış mərasimini bu arzularla, alqışlarla bitirəcəyik. Qoy, Xəzərimiz həmişə sülh, əmin-amanlıq içində sakit, rahat nəfəs alsın! Gəmilərimiz sahilləri xoş müjdələrlə sevindirsin! Qobustan qayıqlarındakı Günəş Xəzərin sahillərindəki ölkələrdən, xalqlardan xoşbəxtlik nurunu, al şəfəqlərini heç zaman əsirgəməsin!

Bir sözlə, "Dəniz Kuboku-2017" beynəlxalq yarışları Xəzərsahili ölkələr arasında qarşılıqlı əlaqələrin, dəniz təhlükəsizliyi sahəsində əməkdaşlığın daha da güclənməsinə, Xəzər dənizinin sülh, dostluq, əməkdaşlıq və mehriban qonşuluq zonası olaraq qalmasına öz töhfəsini verəcək. Gündən-günə gözəlləşdikcə dünyanı heyrətləndirən doğma Bakımızın sakinlərini və şəhərimizin qonaqlarını bu tədbirə dəvət edirik.

**- Müsahibəyə görə çox sağ olun. "Dəniz Kuboku-2017" yarışının açılış mərasimində görüşənədək.**

# Artilleriya təyinatlı hərbi hissənin ildönümü keçirilib



1980-ci illərin axırlarından Ermənistan torpaqlarımızı işğal edir, dinc əhali yurd-yuvalarından didərgin salınır. Belə bir vaxtda yaradılan və formalaşan "N" hərbi hissəsi atəşkəs əldə olunana qədər Qazax, Tovuz, Goranboy, Tərtər, Ağdam, Qubadlı, Füzuli, Zəngilan istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Şəxsi heyətin böyük əksəriyyəti könüllülərdən ibarət olan yerli müdafiə batalyonları ümummilli lider Heydər Əliyevin fərmanı ilə buraxıldı. Səriştəli, bacarıqlı və təcrübəli zabitlər müvafiq əmrlə yenidən nizami ordu sıralarına çağırıldı.

Müharibənin ilk dövründə, gərgin vaxtlarda yaradılan hərbi hissələr müharibə tariximizdir. Elə bir dövrdə çətinliklə də olsa yaradılan artilleriya təyinatlı "N" hərbi hissəsi bu gün qarşısına qoyulan bütün tapşırıqları həll etməyə qadirdir.

1992-ci ilin 23 iyulunda yaradılan hərbi hissənin 25-ci ildönümü münasibətilə təntənəli tədbir keçirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa edilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və artilleriya komandanının təbrik məktubu şəxsi heyətə çatdırılıb.

Çıxış edən polkovnik Əbil Əmirov əlamətdar gün münasibətilə şəxsi heyəti təbrik edib, güclü orduda xidmət etdiklərindən qürur duyduğunu bildirib.

- Bu gün hərbi hissəmizin həyatında ən əlamətdar günlərdən biridir. Çünki bu gün xidmət etdiyimiz hərbi hissənin yaranmasının 25-ci ildönümüdür. Yarandığı gündən böyük döyüş yolu keçib. Qeyd edim ki, 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa edən Azərbaycan öz nizami ordusunu yaratmağa başladı. Bu işdə xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidməti olub. Məhz onun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra peşəkar, intizamlı, güclü ordu formalaşmağa başladı və Vətənimizin müdafiəsində öz sözünü dedi.

Bu gün Azərbaycan Ordusu gündən-günə güclənir, qüdrətini və döyüş qabiliyyətini artırır. Biz hərbçilər qəlbimizdə qələbəyə daxili inam hissi ilə yaşayırıq və Ali Baş Komandanımız İlham Əliyevin müvafiq əmrini gözləyirik. Qətiyyətlə deyə bilərik ki, ordumuz ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə hazırdır. Biz buna görə ulu öndər Heydər Əliyevin siyasi xəttinə borcluyuq.

Döyüş yolu keçən hərbi hissə 2016-cı ilin aprel döyüşlərində Ağcabədi, Ağdam, Tərtər, Goranboy bölgələrində fədakarlıq və rəşadət göstərib. Hərbi hissənin 1 nəfər hərbi qulluqçusu "Vətən uğrunda", 5 nəfəri "Hərbi xidmətlərə görə", 25 nəfəri "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olunub.



Tədbirdə Goranboy rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev də çıxış edib:

- Sizi bu əlamətdar gün münasibəti ilə səmimi qəlbdən təbrik edir, hərb sənətinin öyrənilməsində müvəffəqiyyətlər arzulayıram. Xalq və ordu daim əl-ələ bir amal üçün yaşayır. Torpaqlarımızın azad olunması arzusu ömrümüzün mənası, yaşama səbəbidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, Ali Baş Komandanın diqqət və qayğısı ilə inkişaf edən ordumuz regionda ən güclü ordudur. Sonda onu da qeyd edim ki, xalq orduya güvənir və daim ordunun yanında yer almağa hazırdır.

Tədbirin sonunda xidmətdə müvəffəqiyyət qazanan hərbi qulluqçular mükafatlandırılıb, mərasim təntənəli keçidlə başa çatıb.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# "Komandir, Qarabağ yaxındadır"



*Ümummilli lider Heydər Əliyev: "Hər bir gənc, hər bir ata-ana, hər bir valideyn öz oğlunu böyüdərkən ona əvvəl nəsihət verməlidir ki, sənin birinci borcun orduda xidmət etməkdir, Vətəni müdafiə etməyə hazır olmaqdır, döyüş qabiliyyəti əldə etməkdir və döyüşə hazır olmaqdır". Ulu Öndərin ideyalarını əldə rəhbər tutan gənclərimiz son illər hərbi peşələrə böyük maraq göstərir, Vətən adlı bir ömür sahibi olmaq istəyirlər.*

"Gənc zabitlərimiz" rubrikasının budəfəki qəhrəmanı baş leytenant Adil Bəşirovdur. O, Siyəzən rayonunda dünyaya göz açıb. Evdə valideynlərindən, məktəbdə müəllimlərindən ermənilərin vəhşilikləri haqqında çox eşidib. Vətənə sevgisi, düşmənə nifrəti artıb. Bu yolda canından, qanından keçməyi özünə borc bildi. Siyəzən rayonu Mikayıl Müşfiq adına tam orta məktəbi bitirən yeniyetmə vaxt itirmədən sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verdi. İmtahanları uğurla başa vuran gənc 2009-cu ildə ilk dəfə hərbi mundiri əyninə geyindi. Tək arzusu Qarabağ torpaqlarını azad etmək, şəhidlərimizin qisasını almaq olan gənc, dərslərinə diqqətlə yanaşdı, verilən tapşırıqların öhdəsindən məsuliyyətlə gəldi, silah və texnikaların sirlərinə yiyələndi. 2013-cü ildə təhsilini başa vurdu və "leytenant" hərbi rütbəsi ilə "N" hərbi hissəsinə göndərildi.

**- Səni hərbçi olmağa ruhlandıran hansı səbəblər olub?**

- Xocalı soyqırımından 1 il tam keçməmiş dünyaya göz açmışam. Böyüdükcə ailəmdən, sonra müəllimlərimdən öyrənmişəm hər şeyi. Qadın, uşaq, yaşlı-cavan bilmədən əzab verərək öldürülən insanlarımızı, Azərbaycanın gözəl guşələrindən olan Qarabağımızın düşmən tapdağında olmasını düşünəndə ürəyim sızlayır, düşmənə nifrətim artırdı. Gizir kimi orduda xidmət edən Ceyhun əmim həmişə söhbətlərində hərbi xidmətin nə qədər mühüm və vacib olduğunu, cəmiyyətdə ən hörmətli peşələr sırasında dayandığını danışırdı. Bu söhbətlər qərarımı qətiləşdirdi. Heç vaxt unutmaram, atamın verdiyim qərardan qürurlanması məni çox sevindirmişdi. Gördüyünüz kimi, əynimdə forma Vətənim Azərbaycana xidmət edirəm. Mən də Ali Baş Komandanın əmrini intizarda gözləyirəm. Şuşada, Kəlbəcərdə, Laçında üçrəngli bayrağımızı dalğalandıran hərbçilərdən biri də mən olacam.



**- Vətən sevgisini ilk dəfə nə vaxt dərindən hiss etmisən?**

- Hələ uşaq yaşlarımdan ailəmdən, məktəbdə müəllimlərimdən öyrənmişəm Vətən sevgisini. Heç vaxt unutmaram, orta məktəbdə riyaziyyat müəlliməm Mərziyyə Quliyeva günlərin birində dərsə başlamazdan öncə işğalda olan torpaqlarımızdan danışırdı. Bildirdi ki, sizlər parta arxasından qalxıb səngərə, Vətənin keşiyinə yollanacaqsınız. O zaman unutmayın ki, siz ananızdan, doğmalarınızdan öncə Vətəni düşünməlisiniz. Müəllimə bir xeyli danışdıqdan sonra "böyüyəndə kim olacaqsınız" sualını verdi. Mən də daxil olmaqla sinfin böyük əksəriyyəti "hərbçi olacam" demişdi. Mənə elə gəlir ki, o gün hər birimiz Vətən sevgisinin nə olduğunu dərk etmişdik.

**- Mikayıl Müşfiq adına tam orta məktəbdə təhsil almısan. Azərbaycan poeziyasının ən parlaq səhifələrini yazmış bir vətənpərvər şairin ömrü və yaradıcılığı həyat yolunu seçməyində yardımçı olubmu?**

- Mikayıl Müşfiq Azərbaycan gəncliyinə bütün zamanlarda örnəkdir. Onun şəxsiyyəti milli şüur və vətənpərvərliyin timsalı, yaradıcılığı isə böyük bir nəslin milli mənlik şüurunun təsdiqi olan əvəzsiz xəzinədir. Hər bir gənc istənilən mövzuda Müşfiqin şeirlərindən istifadə edə bilər. Xüsusən də milli mənlik şüuru, azərbaycançılıq, Vətənə sevgi baxımından Mikayıl Müşfiq şeirləri ölçüyə gəlməzdir. Repressiya qurbanı olan şairimizin mənalı ömrünü dərindən öyrənərək hər misrasında Vətən sevgisini hiss etmişəm.

**- Bizdə olan məlumata görə aprel döyüşlərində iştirak etmisən və medalla təltif olunmusan...**

- Aprel döyüşləri ordumuzun güc göstəricisi, düşməndən qat-qat üstün olduğumuzun bariz nümunəsi idi. Bu döyüşlərdə əsgərlərimizin necə həvəslə, qorxmadan irəli atıldığını müşahidə etdim. Bu məni olduqca sevindirdi. Əsgərlərimdən birinin "komandir, Qarabağ yaxındadır" deməsi isə məni o qədər qürurlandırdı ki, bu hissi sözlərlə ifadə etmək olmaz.

**- Hərbi xidmətdə yaranan dostluq əbədi olur. Döyüşçü dostunun və heç vaxt unutmayacağın əsgərlərdən birinin adını çəkməyini istərdim.**

- Hərbi təhsil illərindən tanıdığım, şəxsiyyətinə hörmət etdiyim, hazırda çiyin-çiyinə birlikdə xidmət etdiyim savadlı və bacarıqlı zabit Ceyhun Əliyevin adını çəkməyi özümə borc bilirəm. Onunla aprel döyüşlərində də birlikdə olmuşuq. Canımızı bir-birimizə etibar etmişik. Əsgərlərimdən isə birinin yox, bir neçəsinin adını qeyd etmək istəyirəm: Əlikram Əkbərov, Nursultan Zutov, Fərid Rüstəmov kimi vətənpərvər əsgərlərimi unudan deyiləm.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**



# Azərbaycan tankçıları "Tank biatlonu" müsabiqəsinin püşkatma mərasimində iştirak ediblər

Rusiya Federasiyasının Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları - 2017" yarışlarının "Tank biatlonu" müsabiqəsi çərçivəsində iştirak edəcək komandalar və tank heyətlərinin püşkatma mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə komandaların rəhbərləri, məşqçilər və tank heyətlərinin üzvləri iştirak ediblər.

Püşkatmanın nəticələrinə əsasən, Azərbaycan tankçıları iyulun 29-da yarışların ilk günündə çıxış edəcəklər.

Ümumilikdə "Tank biatlonu" müsabiqəsində 19 ölkədən (Azərbaycan, Anqola, Belarus, Venesuela, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Zimbabve, İran, Çin, Hindistan, Küveyt, Laos, Monqolustan, Nikaraqua, Rusiya, Serbiya, Tacikistan və Uqanda) komanda iştirak edəcək.

Müsabiqənin final estafeti avqustun 12-də yarışların son günü keçiriləcək.



## Ermənistan növbəti dəfə döyüş PUA-dan istifadə edib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Tərtər rayonu ərazisində yerləşən qoşunların qarşıdurma xəttində Ermənistan silahlı qüvvələri növbəti dəfə döyüş pilotsuz uçuş aparatından istifadə ediblər.

Düşmənin kustar üsulla hazırladığı yandırıcı-partlayıcı vasitə və metal elementlərlə doldurulmuş qurğunun bölmələrimizin mövqelərinə atılması nəticəsində hərbi qulluqçumuz əsgər Babakişiyev Muraz Kamal oğlu yüngül bədən xəsarətləri alıb.

Hazırda hospitala yerləşdirilən əsgər M.Babakişiyevin həyatı üçün heç bir təhlükə yoxdur.

Təxribatın qarşısının alınması məqsədilə tədbirlər görülür.

*Bildiyimiz kimi, 2014-cü ildən etibarən hər il hərbi vətənpərvərlik təmayüllü "Gənc Heydərçilər" yay düşərgəsi Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyətinin birgə layihəsi əsasında təşkil edilir. Ənənəvi olaraq bu il də iyulun 17-də cəbhə xəttində xidmət edən hərbi qulluqçuların və şəhid ailələrinin övladları, Səbail rayon məktəblərində təhsildə fərqlənən şagirdlərdən ibarət 150 nəfərlik qrup "N" hərbi hissəsində təşkil olunan yay düşərgəsinə yola salınıb.*

# Hərbi peşəyə maraq artır

## "Gənc Heydərçilər" yay düşərgəsində



Yay düşərgəsinin fəaliyyətini işıqlandırmaq məqsədilə redaksiyadan tapşırıq alıb respublikamızın Şimalında yerləşən, zəngin təbiətilə seçilən rayona yola düşürəm.

"N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsində bir neçə valideynin hərbçilərlə söhbət apardığını görüb onlara yaxınlaşıram. Öyrənirəm ki, onlar yay düşərgəsində dincəlməyə gələn nisbətən kiçik yaşlı uşaqların valideynləridir. Övladlarını görməyə gəliblər. Elə ilk söhbətimizdən də yay düşərgəsində yaradılan hərtərəfli şəraitdən razı qaldıqlarını və gələcəkdə sağlam, vətənpərvər ruhlu gəncliyin yetişməsində belə layihələrin keçirilməsinin, yay düşərgələrinin təşkilinin əhəmiyyətini vurğuladılar.

"Gənc Heydərçilər"in yerləşdiyi otaqları bir-bir gəzirik. Müxtəlif yaş qrupları üzrə bölünmüş uşaqların dincəlmə vaxtı idi. Günün nizam qaydalarına uyğun olaraq səhər tapşırıqlarını yerinə yetirən hərbi geyimli bu uşaqlar, deyəsən, yamanca yorulmuşdular. Onlar hərbi "vərdiş"lərə yeni-yeni yiyələnirlər. Hər bir qrupa xüsusi təlim görmüş müəllimlər nəzarət edir.

Hərbi vətənpərvərlik təmayüllü "Gənc Heydərçilər" adlı yay düşərgəsinə təhkim olunmuş Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik-leytenant Əfqan Əliyev uşaqlarda hərbi vətənpərvərlik hisslərinin tərbiyə olunması kiçik yaşlarından başlanmasının vacibliyini bildirdi. "Çünki Vətənə, torpağa, elə-obaya sevgi elə kiçik yaşlardan başlanır. Bu gün burada dincələn və yay tətilini səmərəli keçirən gələcəyin Vətən müdafiəçiləri olan bu uşaqlarda hərb barədə ilkin fikir formalaşır. Kollektivin nə demək olduğunu uşaq dünyagörüşü ilə anlayır. Onlarda yoldaşlıq, dostluq kimi müqəddəs hisslər yaranır. Bunlar çox vacib məsələlərdir. Hərbə, orduya sevgi, gələcəkdə hərbçi olmaq, hərbi forma geyinmək kimi arzular da kiçik yaşlardan qəlbdə baş qaldırır".

Ə.Əliyev düşərgədə uşaqların təlim-tərbiyə işləri ilə Səbail rayonunun orta məktəblərində dərs deyən idman və hərbi hazırlıq müəllimləri, eyni zamanda hərbi hissənin zabitləri, çavuş və əsgərlərdən ibarət qrupun məşğul olduğunu deyir. "Düşərgədə iki istiqamətdə fəaliyyət göstəririk - hərbi və mülki istiqamətdə. Burada kollektiv intizam formalaşır. Onların əynindəki hərbi forma məsuliyyət hissini tərbiyə edir. Bunlar ən vacib şərtdir. Hər gün "Qalx!" komandasından sonra sıra və idman hazırlığı keçirilir. 9-da səhər yeməyi olur. Onu da deyim ki, düşərgədə uşaqlar gündə dörd dəfə yüksək kalorili yeməklə, təzə meyvə və tərəvəzlə, süd məhsulları ilə təmin edilirlər. Hər gün saat 9:30-dan 13-ə qədər yeniyetmələrə mənəvi-psixoloji, atəş, rabitə, kəşfiyyat, tibbi və taktiki hazırlıqlardan dərslər keçirilir. Onlar silahın açılıb yığılma qaydalarını öyrənirlər. Uşaqlar bütün bunları böyük həvəslə yerinə yetirirlər. Günorta saat 13-dən 14-dək nahar vaxtıdır. Sonra "Gənc Heydərçilər"ə asudə vaxt təşkil olunur. Onlar hava şəraitinə uyğun olaraq, iqlimə görə turnikdə dartınma, paralel qollarda hərəkətlərlə, şahmat, dama oyunları ilə məşğul olurlar. Burada yarışlar təşkil edirik. Yarışları da yaş qruplarına uyğun müəyyənləşdiririk. Qusar olimpiya kompleksində mini futbol yarışı keçirtdik. "Gənc Heydərçilər"in Şahdağ İstirahət Mərkəzinə ekskursiyasını təşkil etdik".





Müdafiə Nazirliyinin nümayəndəsi hərbi hissədə yay düşərgəsinin təşkilinin əhəmiyyətinin hüdudsuz olduğunu söyləyir: "Düşərgədə 150-yə yaxın "Gənc Heydərçilər" var. Onların əksəriyyəti 10-15 yaşlı 4-cü və 8-ci sinif şagirdləridir. İçərilərində 8-9 yaşlarında olan da var. Əsas məqsədimiz yetişən nəsildə vətənpərvərlik, Vətənə, dövlətə, xalqa sadiq olmaq duyğularını tərbiyə etməkdir".

"Gənc Heydərçilər"in yay düşərgəsi çox maraqlı və rəngarəng keçir. Hərbi hissənin ərazisi ilə yaxından tanış olur, maddi tədris bazaları ilə maraqlanırlar. Hərbi hazırlığa dair ilkin və zəruri vərdişləri öyrənməyə çalışırlar. Düşərgədə ədəbi-bədii təqdimatlar, bilik yarışmaları, viktorinalar, dəyirmi masalar təşkil edilir. Öyrənirəm ki, düşərgədə yaş qrupuna uyğun olaraq 5 taqım var. Uşaqların hərbə marağı çoxdur. Əşrəf Mehrəlizadə, Teymur Qarayev, Xanhüseyn Kazımlı, Ramazan Bağırov, Nihad və Murad Tağızadə qardaşları, İlkin İsmixanov, İbrahim Sadıqlı, Ayxan Əliyev və Tural Əliyev gələcəkdə hərbçi olmağı arzulayırlar. Ümid Sadıqov taqım komandiridir. Ali hərbi təhsil alır. Yay tətilini "Gənc Heydərçilər"lə birlikdə keçirməyi məqsədəuyğun bilib. Ümid də yay düşərgəsinin yetirməsidir. Qürurverici haldır.

Düşərgədə ilk günlər darıxan uşaqlar sonrakı günlərdə hərbi hissədən getmək istəmədiklərini deyirlər. Sanki onlar vahid bir ailədə birləşərək kollektivə tam uyğunlaşırlar. Onlarda birlik, həmrəylik hissi formalaşır. Bu da hər bir yeniyetmənin gələcəkdə hərbi xidmətə hazırlığında əsas şərtlərdəndir. Ənənəvi keçirilən yay düşərgəsinin (2014-cü ildən) nəticəsi olaraq bir neçə "Gənc Heydərçilər" C.Naxçıvanski adına Hərbi Liseydə və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alırlar.

Yay düşərgəsində "Gənc Heydərçilər"i rayonun tarixi yerlərinə, mədəniyyət abidələrinə, Quba rayon tarix-diyarşünaslıq muzeyinə ekskursiya və Quba Soyqırımı Memorial Kompleksinin ziyarəti gözləyir.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Sülh və dostluq naminə

## "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsi ilə əlaqədar mətbuat konfransı keçirilib

*İyulun 25-də Hərbi Dəniz Qüvvələrinin qərargahında "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin təşkili ilə bağlı mətbuat konfransı keçirilib. Konfransda iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlər iştirak ediblər.*




Azərbaycan Respublikasının yarışlarda nümayəndə heyətinin rəhbəri, birinci dərəcəli kapitan Şahin Məmmədov kütləvi informasiya vasitələrinin nümayəndələrini salamladı, qarşıdakı yarışların təşkili və keçirilməsilə bağlı ətraflı məlumat verdi.

"Dəniz Kuboku" yarışlarının Rusiya Federasiyasının təşəbbüsü ilə "Beynəlxalq Ordu Oyunları" çərçivəsində artıq üçüncü ildir ki, keçirildiyini bildirən 1-ci dərəcəli kapitan Şahin Məmmədov qeyd etdi ki, ötən il Dağıstan Respublikasının Kaspiysk şəhərində təşkil edilmiş "Dəniz Kuboku-2016" müsabiqəsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandası uğurla yarışaraq ümumi hesabda ikinci yeri tutmuşdu. Təşkilat komitəsi tərəfindən builki yarışların ölkəmizdə keçirilməsi barədə qərar qəbul edilmişdi, ona görə "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsi Azərbaycanda Hərbi Dəniz Qüvvələrinin bazasında təşkil ediləcək.

Beynəlxalq müsabiqənin keçirilməsində əsas məqsəd iştirakçı ölkələrin silahlı qüvvələrinə məxsus şəxsi heyətin döyüş hazırlığını daha da artırmaq, təcrübə mübadiləsi aparmaq, eyni zamanda onlar arasında dostluq münasibətlərini daha da möhkəmləndirməkdən ibarətdir.

Ölkəmizdə keçirilən beynəlxalq müsabiqədə Azərbaycan, Rusiya Federasiyası və Qazaxıstanla yanaşı, ilk dəfə İran Hərbi Dəniz Qüvvələrinin zabit və matrosları da iştirak edirlər.

Birinci dərəcəli kapitan onu da əlavə etdi ki, yarışların yüksək səviyyədə baş tutması üçün bütün təşkilati tədbirlər həyata keçirilib. Əvvəlcədən təlim mərkəzləri, liman körpüləri və təlim-məşq kompleksləri yaradılıb. Müsabiqədə hər ölkədən bir əsas və bir ehtiyat gəmi iştirak edir.



"Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsi hərbi dənizçilər tərəfindən üç mərhələdə icra ediləcək. Artilleriya atəşlərinin yerinə yetirilməsi, gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı, həmçinin dəniz hazırlığı üzrə keçirilən yarışları hakimlər heyəti dəyərləndirəcək və yekunda qaliblər elan ediləcəklər. Beynəlxalq yarışların açılış mərasimi avqustun 1-də, bağlanış mərasimi isə 11-də olacaq.

Birinci dərəcəli kapitan Şahin Məmmədov vurğuladı ki, yarışların proqramına mədəni-kütləvi tədbirlər də salınıb. Hərbi dənizçilər, həmçinin idman yarışlarında da iştirak edəcək, Bakının görməli yerlərilə tanış olacaqlar.

Rusiya Federasiyasının nümayəndəsi birinci dərəcəli kapitan Sergey Ekimov qeyd etdi ki, "Dəniz Kuboku" müsabiqəsi ənənəvi olaraq keçirilir və yarışlara hazırlıq il ərzində davam edir. Oyunların keçirilməsində əsas məqsəd iştirakçı ölkələrin hərbi dənizçiləri arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsidir.

Birinci dərəcəli kapitan Sergey Ekimov müsabiqəyə hazırlıqla bağlı görülmüş işlərə görə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanlığına öz minnətdarlığını bildirdi.

"İki gündür ki, biz bütün təlim meydançalarında olmuşuq, - rusiyalı hərbçi dedi, - həqiqətən, çox böyük hazırlıq işləri aparılıb. Meydançalar bütün lazımi avadanlıqlarla, inventarla təchiz edilib. Məşqlərin qrafiki razılaşdırılıb, komandaların həm hərbi dəniz bazasında, həm də şəhərdə hərəkəti yüksək səviyyədə təşkil edilib".

Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi birinci dərəcəli kapitan Ermek Baydabulov istiqanlılıqla qəbul edildikləri üçün Azərbaycan tərəfinə öz minnətdarlığını bildirdi. "İldən-ilə "Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən yarışların miqyası böyüyür, - o dedi. - Yarışların proqramı ilə tanış olduq, proqram çox zəngin tərtib edilib, təkcə yarışların deyil, mədəni-kütləvi tədbirlərin keçirilməsi də maraq doğurur. İnanıram ki, yarışlar yüksək səviyyədə keçiriləcək və ən güclülər qalib gələcək".

İran Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi birinci dərəcəli kapitan Mahmud Seyidi bu yarışların təşkilatçılarına öz minnətdarlığını bildirdi, onların sülhə, əmin-amanlığa və qardaşlığa xidmət edəcəyini vurğuladı.

İran hərbi dənizçiləri bu müsabiqələrdə ilk dəfədir ki, iştirak edir, - iranlı zabit əlavə etdi. - Bizim iki hərbi gəmimiz bu yarışlarda iştirak etmək üçün ezam olunub. Arzu edirəm ki, yarışlar sağ-salamat başa çatsın".

Mətbuat konfransında komandaların nümayəndələri müsabiqənin təşkili və keçirilməsi qaydaları, təhlükəsizlik və digər təşkilati məsələlər barədə kütləvi informasiya vasitələrinin nümayəndələrinin suallarını cavablandırdılar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Hərbi liseylərə və Hərbi Tibb Məktəbinin feldşer ixtisası üzrə qəbul imtahanı keçiriləcək

Dövlət İmtahan Mərkəzi (DİM) iyulun 27-də Müdafiə Nazirliyinin hərbi liseylərinə və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbinin feldşer ixtisası üzrə qəbul imtahanı keçirəcək.

DİM-dən AZƏRTAC-a bildiriblər ki, imtahan Bakı və Naxçıvan şəhərlərində ümumilikdə dörd binada təşkil olunacaq. İmtahanda 1725 abituriyentin (Bakı şəhərində 1293 nəfər, Naxçıvanda 432 nəfər) iştirakı nəzərdə tutulur. Onlardan 148 nəfəri Hərbi Tibb Məktəbinə, 1577 nəfəri isə hərbi liseylərə imtahan verəcək.

İmtahanın idarə olunmasına 12 imtahan rəhbəri, 132 nəzarətçi-müəllim cəlb edilib. İmtahan bütün binalarda eyni vaxtda - saat 11.00-da başlayacaq və iki saat davam edəcək. İmtahanda iştirak etmək üçün ərizə vermiş abituriyentlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap edirlər. Buraxılış vərəqəsi ilə yanaşı, onlara "Yaddaş kitabçası"ndan çıxarış da təqdim olunur. Burada abituriyentlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Abituriyentlər imtahana özləri ilə şəxsiyyəti təsdiq edən sənədin əslini və "İmtahana buraxılış vərəqəsi"ni gətirməlidirlər.

Göstərilən sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda abituriyent imtahana buraxılmayacaq.

İmtahan binasına giriş zamanı üzərində mobil telefon, konspekt və digər yardımçı vasitələr aşkar edilən abituriyentlər barədə akt tərtib olunacaq və imtahan binasına buraxılmayacaqlar.

# Xəbərlər: hadisələr, faktlar

### Misirdə Yaxın Şərqin və Afrikanın ən böyük hərbi bazası açılıb



Bu gün Misirdə Aralıq dənizi sahilində İsgəndəriyyənin qərbində yerləşən Al-Hamam şəhərində "Məhəmməd Nacib" hərbi bazasının açılış mərasimi keçirilib. Mərasimdə Misir Prezidenti Əbdülfəttah əs-Sisi, ərəb və digər ölkələrin rəsmi şəxsləri, ölkədə akkreditə olunmuş diplomatik missiyaların rəhbərləri iştirak ediblər. Misirin ilk prezidentinin şərəfinə adlandırılan "Məhəmməd Nacib" hərbi bazası Yaxın Şərqdə və Afrikada ən böyük hərbi bazadır.

Misir Prezidenti dövlət bayrağını qaldırıb və müxtəlif ixtisaslar üzrə ali hərbi məktəblərin məzunlarının paradını qəbul edib. Hərbi bayramın ən maraqlı məqamı Misir Hərbi Hava Qüvvələrinin "Gümüş ulduzlar" yüksək pilotaj qrupunun çıxışı olub.

Bazanın ərazisində mindən çox tikili, o cümlədən kazarma, zabit heyəti üçün yaşayış binası, idman obyektləri, hərbi təlim meydançaları var. Bazada hərbi texnika, o cümlədən yüzlərlə tank, vertolyot, kater, hava hücumundan müdafiə sistemi yerləşdirilib.

### Dubayda dənizin ortasında 134 metrlik qüllə tikiləcək



2017-ci ilin sentyabr ayında Dubayda nəhəng dəniz layihəsinin tikintisinə başlanılacaq. Söhbət "Dubay Limanı"ndan gedir.

İnşaat işlərinin 2019-cu ilin mayında başa çatdırılması planlaşdırılır.

Ən müasir texnologiyalara əsaslanaraq tikiləcək layihə 1 milyon 821 min kvadratmetrlik ərazini əhatə edəcək. Burda sərnişin terminalı və 324 min kvadratmetrlik ticarət mərkəzi də yer alacaq.

Bundan başqa, layihə çərçivəsində dənizin ortasında "Dubay Dəniz Fənəri" adlı 134 metr yüksəkliyində bir qüllə də inşa olunacaq. Həmin qüllə üzərində işıq şouları göstəriləcək.

### Pakistanda partlayış: azı 26 nəfər ölüb, 57 nəfər yaralanıb



Bazar ertəsi günü Pakistanın Lahor şəhərində (Pəncab vilayəti) partlayış nəticəsində azı 26 nəfər ölüb, 57 nəfər xəsarət alıb.

Partlayış meyvə-tərəvəz bazarının girişində növbə çəkən polis naryadının yaxınlığında törədilib. Yaralananlardan bəzilərinin vəziyyəti ağırdır.

Polis nümayəndələri telekanala bildiriblər ki, terrorçu kamikadze tərəfindən həyata keçirilən partlayışın hədəfi hüquq mühafizə orqanlarının əməkdaşları olub. İlkin məlumata görə, hücum zamanı azı 8 polis işçisi həyatını itirib.

### CNN: ABŞ-ın hərbi gəmisi İran katerinə xəbərdarlıq atəşi açıb



İyulun 25-də ABŞ Hərbi Dəniz Qüvvələrinin gəmisi İrana məxsus katerin yaxınlaşmasına cavab olaraq bir neçə xəbərdarlıq atəş açıb. Bu barədə CNN telekompaniyası məlumat yayıb.

İnsident Fars körfəzinin şimalında, beynəlxalq sularda baş verib. Radio siqnallarına reaksiya verməyən kater ABŞ-ın hərbi gəmisinə 150 metrə qədər yaxınlaşdıqda ona tərəf suya bir neçə xəbərdaredici atəş açılıb.

Oxşar hadisə yanvarın 8-də də baş verməyişdi. Həmin vaxt ABŞ-ın "Mahan" raket esminesi Ərəbistan dənizinin şimal-qərbində Fars körfəzini Oman körfəzi ilə birləşdirən Hörmüz boğazında ona yaxınlaşan İranın dörd kateri istiqamətində atəş açmışdı.

**AZƏRTAC-ın materialları əsasında**

Ovqat

# Əsgərə məktub



Səmimi müraciət, səmimi söz. Səmimi sözü könül xoşluğuyla oxuyuruq, mətləbə inanırıq. Mətləbdə ifadə olunanların sevgi çalarını sezirik, duyuruq. Sezdiklərimiz, duyduqlarımız məktubu yazanın düşüncələrini ifadə etdiyindən onun mənəvi aləmiylə ünsiyyətimiz yaranır.

Xalq orduya həmişə inanıb, güvənib. 2016-cı ilin aprel döyüşlərində də, döyüşlərdən sonra da, indi də xalq ordusuyla qürurlanıb. Aprel zəfəri həm də bu inamın, bu güvəncin təntənəsidir. Döyüşlər gedən vaxtlarda məktəblilərin düşüncələri, istəyi hamımıza məlum oldu. Belə yeniyetmələrlə hamımız qürurlandıq.

Müdafiə Nazirliyi ilə Səbail rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığıyla həyata keçirilən tədbirlərdən biri məktəblilərin vətənpərvərlik tərbiyəsinin daha dolğunluğuyla formalaşdırılmasına istiqamətlənib. "Gənc Heydərçilər" 10 gün müddətində Qusarda həm istirahət edib, həm də hərbi xidmətin mahiyyəti ilə yaxından tanış olublar. Bu tanışlıq neçəsinin həyat yolunu müəyyənləşdirəcək, qəti fikir söyləmək mümkün deyil.

"Gənc Heydərçilər"in Azərbaycan əsgərinə sonsuz sayğısı var, dönməz inamı var. Bu sayğı, bu inam öz əksini onların yazdığı məktublarda tapır. Azərbaycan əsgərinə yazılmış məktublarda diqqəti çəkən məqamlar düşüncələrimizi titrətdi. Oxuduq - qürurlandıq, oxuyun - qürurlanın.

**"Azərbaycan Ordusu"**

Hərbçiləri çox sevmişəm. Özüm də hərbi paltar geyinməyi arzulamışam. O paltarı geyinəndə necə qürurlandığımı təsvir etməyə çətinlik çəkirəm. Əsgər qardaşım, burada eşitdiyim bir fikir məni gələcəkdə hərbi həyata bağlayacaq: görünmədən gör, ölmədən dön. Dön, geri qayıt, yeni, döyüş, qələbə çal. Sən bu yolun əsgərisən, mən də bu yolun əsgəri olacam!.. Onda indi mən yaşda olanlar mənə də məktub yazacaq! İndi sizə məktub yazmaqla necə qürurlanıramsa, onda alacağım məktublardan da elə qürur duyacam. Məktub sevgidi. Sevirəm - yazıram, sevəcəklər - yazacaqlar.

**Şahin Abbaszadə,**
**49 saylı orta məktəbin**
**VIII sinif şagirdi**

Əsgər qardaşım, biz burada həm istirahət edirik, həm də hərbi xidmətin bəzi sirlərini öyrənirik. Buna görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarıq. Sizinlə belə ünsiyyəti bizə Müdafiə Nazirliyi bəxş edib.

Hərbi xidmət haqqında eşitdiklərim məndə həmişə xoş təəssüratlar yaradırdı. Burada o təəssüratları özüm yaşayıram. Nə qədər sevinirəm!..

Bunları ömrüm boyu yadda saxlayacam. Biz də bir gün əsgər olacağıq. Mübariz kimi, Çingiz kimi vətənpərvər olmağa söz veririk. Sizin işğaldan azad edəcəyiniz torpaqlarda xidmət edəcəyik. O günün intizarındayıq. Bilirəm ki, hər biriniz Ali Baş Komandanın əmrinə hazırsınız.

**Orxan Ələsgərov,**
**49 saylı orta məktəbin**
**VIII sinif şagirdi**

Bu il "Gənc Heydərçilər"in yay düşərgəsində istirahət etmək mənə də nəsib oldu. Çox sevinirəm. Mən başqa düşərgələrdə istirahət edə bilərdim. Ancaq burada tamam fərqli şərait var. Belə ki, biz əsgərlərin əhatəsindəyik. Onlardan çox şey öyrənirik. Çoxumuzda hərbi işə maraq yaranıb.

Yaşımın az olmasına təəssüflənirəm. Kaş əsgər olaydım, kaş sizin sıranızda olaydım. Zəhranın, onun nənəsinin qisasını alanlardan biri də mən olaydım.

Bu məktubumun Şuşada xidmət edən əsgərlərimizə çatmasını arzulayardım. İnşallah, belə məktublarım sizdən sonra xidmət edəcək əsgərlərə orada çatar.

**Teymur Qarayev,**
**225 saylı orta məktəbin**
**VI sinif şagirdi**

Ötən ilin aprelində ordumuz qələbə qazandı, düşmən başa düşdü ki, Azərbaycan əsgəri torpaqlarını işğaldan azad etməyə qadirdir. İnşallah, yaxın vaxtlarda daha böyük qələbə qazanar, torpaqlarımız işğaldan azad edilər.

Biz əminik ki, bu gün Lələtəpədə, Bayraqtəpədə dalğalanan üçrəngli bayrağımız Şuşada, Xankəndidə, işğaldan azad edəcəyiniz digər torpaqlarda da dalğalanacaq.

**Xanhüseyn Kazımlı,**
**"Atatürk" liseyi,**
**VIII sinif şagirdi**

Hər birinizi qardaşım bilirəm. Siz hər ananın oğlusunuz. Torpaqlarımızı qoruyursunuz. Xalqımız sizi çox sevir, sizə inanır, güvənir. Bilir ki, siz torpaqlarımızı işğaldan azad edəcəksiniz. Sizi tanımasam da, müraciət edirəm: sizin yolunuzu biz davam etdirəcəyik. Onda siz də bizə məktub yazacaqsınız, bizə güvəndiyinizi deyəcəksiniz.

**Taleh Əhmədov,**
**91 saylı orta məktəbin**
**X sinif şagirdi**

Əsgər ən ali varlıqdır. Əsgəri anamızı, Vətənimizi sevdiyimiz qədər sevirik. Mən də əsgər olacam. Torpaqlarımızı sizin kimi qətiyyətlə qoruyacam.

**Şamil Abbasov,**
**91 saylı orta məktəbin**
**IX sinif şagirdi**

Azərbaycanı vaxtında Cavanşır, Babək, Şah İsmayıl Xətai, Cavad xan qoruyub. Mübariz kimi, Samid kimi, Murad kimi, Çingiz kimi oğullar bu yolda şəhid olub. Sən onların istəyini yaşadırsan, əsgər qardaşım. Sən Vətənin əsgərisən, sən Azərbaycan əsgərisən! Sən Ali Baş Komandanın, Müdafiə nazirinin bütün əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirirsən. Biz də əsgər olanda sizin kimi xidmət edəcəyik.

**Fərda Dəryayev,**
**134 saylı orta məktəbin**
**IX sinif şagirdi**

Biz də Vətəni sevirik. Burada Vətəni necə sevməyi əsgərlərimizdən öyrəndik. Biz böyümək, hərbi xidmətə tez getmək arzusuyla yaşayırıq. Vaxtında bizə də həsəd aparacaqlar, bizə də güvənəcəklər. Bir vaxtlar sizə məktub yazmış yeniyetmələrin xidmətindən razı qalacaqsınız!..

**Əşrəf Mehrəlizadə,**
**"Dəyanət" liseyi,**
**IX sinif şagirdi**

Yeniyetməliyimizdə belə bir imkana malik olmağım məni həm sevindirir, həm də duyğulandırır. Atamdan eşitdiklərimi, televiziyadan izlədiklərimi indi mən görürəm, həm də yaşayıram.

Hərbi xidmət haqqında bildiklərim nə qədər az imiş! Hərbi xidmət nə qədər maraqlı, nə qədər gərəkli imiş! Əsgər qardaşım, mən bu qısa müddətdə hərbi qulluğu sevdim, hərbi xidmətdə olanlara həsəd aparıram. Mənə belə gəlir ki, insanın peşə seçimində müəyyən təsadüflərin də rolu olur. Deyəsən, mənim "Gənc Heydərçilər" yay düşərgəsinə gəlişim həyatımı müəyyənləşdirəcək. Deyəsən, mən hərbçi taleyi yaşayacam. Həm də böyük sevgilərlə yaşayacam!..

**İlkin İsmixanov,**
**273 saylı orta məktəbin**
**X sinif şagirdi**

Kənd mühitində yaşayıram. Şəhər mühiti haqqında təəssüratlarım olsa da, onu bilavasitə az yaşamışam. İndi burada, "Gənc Heydərçilər" yay düşərgəsində həmyaşıdlarımla əsgərlərin əhatəsində istirahət də, hərbi bilikləri öyrənmək də mənə şəhər mühitinin qaynarlığını yaşadır. Çox sevinirəm. Həmişə sevdiyim, qürurlandığım əsgərlərin necə xidmət etdiyini görürəm, onlara oxşamağa çalışıram.

Əsgər qardaşım, əsgərlər bizə öyrətdiklərini o qədər həvəslə, o qədər sevgilərlə öyrədir ki! Nə vaxtsa mən də yeniyetmələrə belə öyrədəcəm!..

**Murad Hacıyev,**
**Quba rayonu,**
**IX sinif şagirdi**

# İdman

## Boksçularımız Dağıstanda 3 medal qazanıblar



Dağıstanda kişi və qadın boksçular arasında beynəlxalq turnir keçirilib. Yarışda qadın boksçulardan ibarət Azərbaycan millisinin üzvləri də güclərini yoxlayıblar.

"Rabitə" klubunun heyətində çıxış edən xanım idmançılarımız turniri 1 qızıl və 2 bürünc medalla başa vurublar. Belə ki, millimizin liderlərindən Məryəm Cəbrayılova bütün rəqiblərindən güclü olub. 69 kq çəki dərəcəsində mübarizə aparan həmyerlimiz həlledici görüşdə yerli idmançıya qalib gəlməklə, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Yarımfinala kimi irəliləyən Viktoriya İsmayılova və Aytən Rzayeva (hər ikisi 51 kq) isə bürünc medalla kifayətləniblər.

## Gənc cüdoçularımız Çexiyada Avropa kuboku yarışında 13 medal qazanıblar



Çexiyanın paytaxtı Praqada gənclərin cüdo üzrə Avropa kuboku yarışına yekun vurulub.

Mötəbər birinciliyin sonuncu günü də Azərbaycan cüdoçuları üçün uğurlu olub. Gənclərdən ibarət milli komandamız aktivinə daha 2 medal yazdırıb.

Turnirdə 100 kiloqram çəki dərəcəsində yarışan cüdoçularımız - Zelim Kotsoyev və Musa Şəkərəliyev bütün rəqiblərinə qalib gələrək finala yüksəliblər. Azərbaycan duelinin qalibi Zelim Kotsoyev olub.

Beləliklə, gənc cüdoçularımız Praqada 4 qızıl, 5 gümüş və 4 bürünc medal qazanıblar.

Qeyd edək ki, 27 ölkədən 308 (177 oğlan, 131 qız) idmançının qatıldığı mötəbər yarışda Azərbaycan millisi 20 cüdoçu (15 oğlan, 5 qız) ilə təmsil olunub.

## Stolüstü tennisçimiz Avropa çempionu adını qazanıb



Portuqaliyanın Guimaraes şəhərində keçirilən Avropa çempionatında iştirak edən stolüstü tennisçilərimiz yarışı üç medalla başa vurublar.

Çempionatda 44 ölkədən 520 idmançı iştirak edib.

Gənc qızların şəxsi birinciliyində stolüstü tennisçimiz Ninq Cinq birinci yeri tutaraq qızıl medalın sahibi olub. Bu müstəqillik illərində idmanın stolüstü tennis növü üzrə qazanılan ən yüksək nəticədir. İdmançımızın qələbəsi şərəfinə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Gənc qızlardan ibarət millimiz komanda yarışlarında üçüncü yeri tutaraq bürünc, qoşa yarışlarda isə gümüş medal qazanıb.

## "Neftçi İdman Klubu"nun budoçuları dünya kuboku yarışında uğurla çıxış ediblər



Lənkəranda budo döyüş növü üzrə keçirilən dünya kuboku yarışında "Neftçi İdman Klubu"nun yetirmələri uğura imza atıblar.

Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Gürcüstan, İran və Qazaxıstandan 400 idmançının qatıldığı yarış gərgin idman mübarizəsi şəraitində keçib.

Peşəkarlar arasında təşkil olunan turnirdə klubun təmsilçiləri Nicat Heydərov (75 kq) və Mehralı Qasımov (95 kq-dan yuxarı) əzmlə mübarizə apararaq dünya kubokuna sahib olublar.

**AZƏRTAC-ın materialları əsasında**

Ehtiyatda olan kapitan Alıyev Elşən İbrahim oğluna 1995-ci ildə H.Əliyev adına AAHM tərəfindən verilmiş "Tırtıllı və avtomobil texnikaları üzrə mühəndis" diplomu itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 320
Nüsxə 4650